*Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının 30 mart 2022-ci il tarixli iclasında təsdiq edilib (Müşahidə Şurasının iclasının 30 mart 2022-ci il tarixli 03 saylı Protokolu).*

# Azərbaycanda fəaliyyət göstərən yerli QHT-lərin mövcud durumunun qiymətləndirilməsi və təkmilləşdirlməsi üzrə Konsepsiya sənədi

## 1. Giriş

Azərbaycan Respublikası Prezidentinin 27 iyul 2007-ci il tarixli 2288 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına(bundan sonra QHT) dövlət dəstəyi Konsepsiyasının qəbulu ölkədə QHT sektorunun inkişafında yeni mərhələnin  başlanğıcı olmuşdur. Bu konsepsiyada QHT-lərə dövlət dəstəyinin əsas prinsip və formaları, prioritet sahələri, dövlət dəstəyinin təmin olunması barədə müddəalar öz əksini tapmışdır.

Konsepsiyada qarşıya qoyulan məqsəd və vəzifələrin icrası ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci il tarixli 674 nömrəli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası yaradılmışdır (bundan sonra-Şura). Şuranın fəaliyyətə başlaması ilə Azərbaycanda vətəndaş cəmiyyəti institutlarına ixtisaslaşmış dövlət dəstəyinin həyata keçirilməsi sahəsində yeni idarəetmə modeli meydana gəlmişdir. Ötən dövr ərzində qeyri-hökumət təşkilatları vətəndaş cəmiyyətinin inkişafında fəal rol oynayaraq, ölkənin milli maraqlarının qorunmasında, müxtəlif sahələr üzrə dövlət proqramlarının icrasında, həmçinin cəmiyyət həyatının bir sıra sahələrində yaranan problemlərin həllində yaxından iştirak ediblər.

Dövlət və cəmiyyət həyatında qeyri-hökumət təşkilatlarının rolunun artırılması, fəaliyyətinin yeni dövrün çağırışlarına uyğun təşkili, bu sahədə həyata keçirilən dövlət dəstəyinin təşkilati-hüquqi əsaslarının və mexanizmlərinin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 19 aprel 2021-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının əsasında “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi” publik hüquqi şəxs yaradıldı.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi (bundan sonra – Agentlik) qeyri-hökumət təşkilatlarının inkişafı, dövlət-özəl və qeyri-hökumət təşkilatları arasında əməkdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi və təşviqi, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərə dair qeyri-hökumət təşkilatlarının irəli sürdükləri təşəbbüslərin, proqram və layihələrin (bundan sonra – layihələr) mövzularının qiymətləndirilməsi və onlara dair rəy verilməsi, habelə qeyri-hökumət təşkilatlarının beynəlxalq əməkdaşlıq əlaqələrinin inkişaf etdirilməsi

sahələrində (bundan sonra – müvafiq sahə) fəaliyyət göstərən publik hüquqi şəxsdir. Agentlik ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

Bu sənəd Agentliyin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 19 aprel tarixli Fərmanı ilə təsdiq edilmiş Nizamnaməsi ilə nəzərdə tutulan fəaliyyət istiqamətlərinə uyğun vəzifələrinin həyata keçirilməsi məqsədilə Agentliyin 2022-ci il üçün Fəaliyyət Planına uyğun olaraq Azərbaycanda fəaliyyət göstərən yerli QHT-lərin mövcud durumunun qiymətləndirilməsi və təkmilləşdirilməsi üzrə siyasətini müəyyən edir.

Bu sənəddə Agentliyin QHT-lərin fəaliyyət göstəricilərinin ölçülməsi siyasətinin məqsədi, prinsipləri, vəzifələri, qiymətləndirilmə üçün müəyyənləşdirilən göstəriciləri, gözlənilən nəticələri və qiymətləndirmə mexanizmi açıqlanır.

## 2. Konsepsiyanın məqsədi

2007-ci ildən Azərbaycan Respublikasının qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi Konsepsiyası qəbul olunan müddətdən keçən dövr QHT-lərin inkişaf dinamikasının, fəaliyyət göstəricilərinin, ictimai faydalılığının ölçülməsi sahəsində müxtəlif cəhdlər və layihələr olsa da, ciddi və konseptual işlər görülməmişdir. QHT-lərin inkişaf dinamikasının, fəaliyyət göstəricilərinin, ictimai faydalılığının ölçülməsi isə özlüyündə QHT-lərin bacarıqlarının qiymətləndirilməsi, ehtiyaclarının öyrənilməsi və institusional bacarıqlarının artırlması kimi məsələlərinin həllində çox vacib amillər hesab olunur.

Azərbaycan Respublikasında qeyri-hökumət təşkilatlarına dövlət dəstəyi sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi”-nin üzərinə qoyulan vəzifələrin icrası baxımından bu dinamikanının ölçülməsini vacib edir.

Cəmiyyətin inkişafında qeyri-hökumət təşkilatlarının (QHT) rolu və məsuliyyəti barədə müddəalar 2005-ci ilin 2 mart tarixində təsdiq olunmuş “Yardım Səmərəliliyi haqqında Paris Bəyannaməsi”, 2008-ci ilin 4 sentyabr tairixində təsdiq olunmuş “Akkra Fəaliyyət Proqramı” və digər bir sıra mühüm beynəlxalq sənədlərdə və “Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi”nin Nizamnaməsinin 3.1.3 bəndində öz əksini tapmışdır. Bu sənədlərdə qoyulan tələblər QHT-lərin şəffaflığı, hesabatlılığı və fəaliyyət səmərəliliyinin artırılmasına xidmət edir və onların fəaliyyətinə qoyulan tələblərin çoxalmasına gətirib çıxardır. Bu tələblər sadəcə hökumət qurumları tərəfindən deyil, həm də donorlar, tədqiqat institutları, həmçinin böyük beynəlxalq qeyri-hökumət təşkilatları da daxil olmaqla qeyri-hökumət təşkilatlarının özləri və əsasən QHT-lərin hədəf qrupları olan yerli icma qrupları tərəfindən qoyulan tələblərdir. Bu tələblərdən irəli gələn institusional işlərin yerinə yetirilməsi QHT-lərin fəaliyyət səmərəliliyini, hədəf auditoriyaya müsbət təsir qabiliyyətini və hesabatlılıq prinsiplərini öz fəaliyyətləri çərçivəsində tətbiq etmək istəklərini daha dolğun şəkildə əks etdirən praktiki vasitələrin və qiymətləndirmə üsullarının araşdırılmasına gətirib çıxardır.

Bundan əlavə, müasir dövrün tələblərindən irəli gələrək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən məsələlərdə fəaliyyətinin formalaşdırılması üçün Azərbaycan QHT-lərinin rolunun və institusonal bacarıqlarının artırılmasına çox ciddi ehtiyac vardır.

Obyektiv və subyektiv səbəblərə görə fəaliyyət məhdudluğu, o cümlədən pandemiya və müharibə şəraiti Azərbaycan QHT-lərində 2013-cü ilə qədər formalaşmış bacarıqlara və hədəf qrupları ilə münasibətlərə ciddi təsir göstərmişdir. Hazırda QHT sektoru çox həssas bir dövrünü yaşayır. Azərbaycan hökumətinin bu sektora olan münasibətinin yeni müstəvidə formalaşması beynəlxalq təşkilatların yeni təşəbbüslərlə çıxış etməsini zəruri edir və bu kimi meyllər Azərbaycan QHT-lərinin insitutisional inkişafı üçün yeni imkanlar yaradar.

Hazırda dünyada QHT-in fəaliyyət göstərdiyi mühitin və uyğun mühitdə QHT-lərin fəaliyyətinin qiymətləndirilməsi üzrə mövcud yanaşmaları nəzərə almaqla, Azərbaycanda fəaliyyət göstərən yerli QHT-lərin fəaliyyətinin qiymətləndirilməsini əks etdirən yanaşma təklifidir və aşağıdakı **vəzifələrin** yerinə yetirilməsini nəzərdə tutur.

- qeyri-hökumət təşkilatlarının fəaliyyətlərinin keyfiyyətinin yaxşılaşdırılması;
- fəaliyyətlərin nəticələrini geniş spektrli maraqlı tərəflərə nümayiş etdirməsi;
- təşkilati idarəetmə sisteminin təkmilləşdirilməsi;
- hesabatlılıq və legitimlik səviyyəsinin artırılması;
- mövcud QHT mühitində dəyişikliklər etməyə və daha səmərəli fəaliyyət göstərdikləri şəraitin yaxşılaşdırılması

Konsepsiyanın hazırlanması üzrə İşçi qrupu son dövrlərdə beynəlxalq təcrübədə tətbiq olunan yanaşmaları və modelləri nəzərdən keçirmişdir və QHT-lərin mövcud durumunun qiymətləndirilməsi üçün aşağıdakı göstəriciləri müəyyənləşdirmişdir:

## 3. QHT-lərin fəaliyyət göstərdiyi mühitin və mövcud durumunun qiymətləndirilməsi üçün müəyyənləşdirilən göstəricilər

***3.1.*** Qeyri-hökumət təşkilatlarını ***xarakterizə edən mühit(hüquqi, bürokratik və adminstrativ)***

- QHT-lərin fəaliyyətinə dair normativ-hüquqi sənədlərdən irəli gələrək QHT-lərin effektiv fəaliyyəti üçün yaradılan problemlərin təhlil olunması və həmin problemlərin aradan qaldırılması yollarının göstərilməsi;
- QHT-lərin ədliyyə, vergi və digər müvafiq dövlət orqanlarında qeydiyyatı;
- Qrantların qeydiyyatı

***3.2. İnsan Kapitalı***

- QHT-lərin kadr potensialını formalaşdıran amillər
- İşçi axını(işçinin saxlanma əmsalı)
- Əməkdaşların məmuniyyət göstəricisi
- Məhsuldarlıq göstəricisi
- Boşdayanma

***3.3. Maliyyə göstəriciləri***

- QHT-lərin maliyyə mənbələrinin təsnifatı(Aİ, ABŞ, Azərbaycan hökuməti, yerli və beynəlxalq biznes qrumlar, ianələr, digərləri)
- Üzvlük haqlarının toplanması (maliyyə göstəricilərində % nisbəti)

- İanələrə əlçatımlıq və onlardan istifadə imkanları
- İllik artım templəri
- Əməliyyat artımı/çatışmazlıq
- Əsas vəsaitlər
- Donorlar/maliyyə mənbələri üzrə orta göstərici

***3.4. Proqram və Xidmətlərin çatdırılması***

- Xidmət göstərdiyi şəxslərin(benefisiarların) sayı;
- Xidmət alanların məmuniyyət göstəricisi;
- İcra müddətində könüllü sayı və könüllük günləri/saatları;
- Bir xidmətə və ya nəfərə düşən xərc;
- Bilik, bacarıq, vərdişlər və davranışda olan dəyişiklər-proqram/layihədən əvvəl və sonra;
- Təqdim etdiyi xidmətlərin keyfiyyətlərinin ölçülməsi meyarları;
- Xidmətlərin monitorinqinin aparılması;

***3.5. Marketinq və kommunikasiya***

- Web səhifəyə baxış və imtina sayı
- Səhifəyə yüklənmiş materialların sayı və həcmi
- Sosial media fəaliyyətinin göstəriciləri(daxil edilən məlumat sayı, çatanlar, oxuyanlar, bəyənən/bəyənməyənlər və s)
- Mediaya ötürülən və yayılan məlumatlar
- Paylaşılan məlumat bülletenləri və ya üzvülüyün artım tempi
- Təşkilatların media siyasəti,
- Media ilə münasibətlərin səviyyəsi

***3.6. Yayım və vəkillik***

- Hədəf icmaları ilə keçirilən tədbilərin sayı
- Təlimatlandırılmış vəkillərin/advokatların sayı
- İcma müraciətlərinin və tamamlanmış müraciətlərin sayı
- İcmadan geri dönüş tələb edən fəaliyyətlərin faiz göstəricisi
- Müraciətlərə reaksiya müddəti
- İcma tədbirlərində iştirak göstəricisi

***3.7. İnformasiya texnologiyaları. Texniki imkanlar***

- QHT-lərin texniki avadanlıqları
- İstifadə imkanları
- Maşın və avadanlıqlar;
- Studiya və s.

***3.8. Fandrayzinq və inkişaf***

- QHT əməkdaşlarının fandreyzinq imkanları
- Layihələrin yazılması sahəsində təcrübələr
- Layihələrin lobbiləşdirilməsi sahəsində təcrübələr
- Donorlar ilə münasibətlərin qurulması

**4. Konsepsiyanın həyata keçirilməsi mexanizmi**

Bu qiymətləndirmənin aparılması üçün Agentliyin İnkişaf və təqiqat sahəsində əməkdaşları QHT-lər arasında sorğu keçirmək üçün müvafiq platforma formalaşdırmalı və ya tədqiqiatla məşğul olan təşkilatlar arasında müsabiqənin keçirilməsi təklif olunur.

5. **Gözlənilən nəticələr**
    - QHT-lərin fəaliyyətlərinin keyfiyyətinin yaxşılaşdırılması;
    - QHT-lərin fəaliyyətlərinin geniş spektrli maraqlı tərəflərə nümayiş etdirilməsi və cəmiyyətdə QHT imicinin formalaşdırılması;
    - QHT-lərin təşkilati idarəetmə sisteminin, hesabatlılıq və legitimlik səviyyəsinin təkmilləşdirilməsi;
    - mövcud QHT mühitində dəyişikliklər etməyə və daha səmərəli fəaliyyət göstərdikləri şəraitin yaxşılaşdırılması istiqamətlərində müvafiq tədbirlərin görülməsi üçün proqram və layihələr hazırlanacaq.